Aqrar Xidmətlər Agentliyi

# AMERİKA AĞ KƏPƏNƏYİ
## (Hyphantria cunea Drury)



088-588
axa.gov.az

## Zərərverici haqqında

Amerika ağ kəpənəyi daxili karantin obyektidir. Zərərvericinin kəpənəyi ağ rəngdədir. Qanadları açıq halda 40-50 mm-dir. Bığcıqları qaradır. Dişi fərdlər erkəklərdən böyük olur. Erkək fərdlərdə bığcıqlar lələkşəkilli, dişilərdə isə sapşəkillidir. Sonuncu yaşda olan tırtılların bədəni 30-40 mm uzunluğunda olub, sıx tükcüklərlə örtülüdür. Tırtılların bel hissəsində iki cərgə qara rəngdə, yan tərəflərində isə iki cərgə açıq sarı ziyillər yerləşir.

## Mübarizə tədbirləri

- Birinci növbədə müşahidələr dəmiryol xətti və avtomobil yollarının kənarında aparılmalı;
- Zərərverici müşahidə edilən ağaclar üzərində tırtılların əmələ gətirdikləri torlu yuvalar kəsilib tırtıllarla birlikdə məhv edilməli;
- Zərərverici tut ağaclarında aşkar edilərsə, onların budanıb bir yerdən başqa yerə aparılması qadağan edilməli;
- Zərərvericinin puplarını məhv etmək məqsədilə ağacların gövdə və budaqları üzərindəki ölmüş qabıqlar qoparılmalıdır.

**Təsiredici maddəsi** Lyambda-siqalotrin 50q/l—(0.2-0.4l/ha) Diflubenzuron 480 q/l --(20ml/100l su)



**Yetkin fərd**



**Zədəsi**